**İLHAMİ CƏFƏRSOY***

# BİBLİYADA ARARAT DAĞI

**XÜLASƏ**

Məqalədə Bibliyadakı Ararat dağının adı etnolinqvistik tədqiqatın obyektinə çevrilir. Belə nəticəyə gəlinir ki, Ararat teonim mənşəli oronimdir.

Arar və Urar qədim Ön Asiyanın iki tanrısının adıdır. Sonra həmin teonimlər r-l əvəzlənməsi ilə Aral və Ural formalarına düşmüşdür.

Qədim prototürklərin mifik təfəkküründə Aral xeyirxah, Ural bədxah tanrı idi. Ural urur, yəni vurur, öldürür, Aral döyüşlərdə yaralanan igidlərin yaralarını sarıyırdı.

Ona görə də döyüşdə ölən igidləri ilk günlərdə dəfn etmirdilər. Məbədə qoyub 12 gün gözləyirdilər. İnanırdılar ki, Aral gəlib onları dirildəcək.

Belə inancla bağlı bir hadisəni bulqarların Buzan nəslindən olan Favstos qələmə almışdır. Yunan təhsilli xristian salnaməçilər tanrı Aralın adını Aralez kimi yazırlar.

Ural dağlarının və Aral gölünün adları teonim mənşəli olub Aral və Ural etnonimləri əsasında yaranmışdır.

**Açar sözlər**: *Aral, Ural, teonim, xeyirxah və bədxah ruhlar, Sarı Tur, Ərgiş.*

Ermənilərin öz beyinlərində yaratdıqları mifə görə, Ararat onların dağıdır, Urartu isə onların dövləti olmuşdur. Əslində isə nə Urartunun ermənilərə bir aidiyyatı var, nə Araratın. Onlar İrəvana gələn xarici qonaqları Eq+miadzin yaxınlığındakı təpənin başına çıxarırlar və ağlamsına-ağlamsına deyirlər ki, o başı qarlı uca dağ bizimdir, ancaq sınırın Türkiyə tərəfində qalıb.

1987-ci il idi. Matenadaranın nadir nüsxələr fondunda tədqiqat aparırdım. Soçidə tanış olduğum qız məni Qanlı təpəyə - onların təbirincə Karmir blura baxmağa dəvət etdi. O, uzaqdakı qarlı dağı göstərib dedi:

- O bizim vüqarımızdır, Araratdır, türklərin əlində qalıb.

Dedim ki, bir Ararat dağı da Monqolustanda var. Yəqin siz bura Monqolustandan gəlmisiniz. Qız necə hıçqırdısa, təpənin ətəyindəki adamlar yanımıza yüyürdülər. Göz yaşlarının səbəbini anlayanda daş atıb başlarını tutdular ki, bu ola bilməz. Mənim o başlara yox, daşlara heyfim gəldiyindən Monqolustanın xəritəsini açıb, H`Ararat silsilə dağlarını göstərmədim.

V.V.Struve "Qədim Şərq tarixi" kitabında yazır: *Urartu* ölkə adı qədim yevrey mənbələrində *Ararat* formasındadır [Струве: 1941, s.307]. Arar+at və Urar+tu eyni yox, qohum etnoslardır. -at sami mənbələrində, -tu qədim Ön Asiyanın iltisaqi dillərində çoxluq və etnik mənsubluq yaradan şəkilçidir [Блейхштейнер: 1936, s.186; Никольский: 1898, s.II-VII; Мещанинов: 1932, s.V-X; Меликишвили: 1960, s.425].

Arxaik forması *arar* olan *aral* teonimi Urartu mixiyazılı mətnlərində *dinqir Aral*

---

* AMEA Nəsimi ad. Dilçilik İnstitutu, filologiya elmləri doktoru, *cfrsoy@mail.ru*

və *dınqır Erel* formalarında yazıya alınmışdır [Никольский 1893, s.II]. Bəzən də bu adların ortasına ***-i*** səsi artırılır. Nəticədə o sözlər *Ariel* və *Eriel* formalarına düşür [Меликишвили: 1960, s.78; Хоренский: 1893, s.114].

*Aral* və *Ural* Ön Asiyanın prototürk etnoslarıdır. Onların bir hissəsi Troyanın işğalından sonra Qalliyaya – İtaliya ilə Fransanın arasına köçmüş [Энеида: 1971, s.384], bir hissəsi Ön və Orta Asiyada qalmışdır. *Aral* Şumer panteonunda yeraltı dünya ruhlarından birinin adıdır [Поэзия и проза древнего Востока: 1973, s.671]. Tanrı Arala tapınan xalqın bir hissəsi Şumerin süqutundan sonra Aralıq dənizi sahillərində məskunlaşmış, bir hissəsi Qafqaz dağlarının ətəklərinə çəkilmişdir.

1721-ci ildə Osmanlı ordusu baş qərargahının tərtib etdiyi "Dəftəri-müfəssəli-Tiflis"də göstərilir ki, Gürcüstanın Ağca qala mahalında Arallı adlı tərəkəmə elat yaşayır. Aral adlı elatlar əfşarlar və qaraqalpaqlar arasında, Altay türkləri arasında da var idi [Молчанова: 1979, s.183].

Dağlıq Altaydakı Aral kəndinin, Orta Asiyadakı Aral gölünün adı Aral etnonimi ilə bağlıdır. Dağıstanın Kür mahalındakı, Azərbaycanın Ərəş qəzasındakı Aral, Arallı kəndlərinin camaatı Şumer və Urartu dövrü aralларının son qalıqlarıdır [Пагирев: 1913, s.194].

Budaq Budaqova və Qiyasəddin Qeybullayevə görə, *Aral* və *Ural* eyni tayfanın adlarıdır [Budaqov: 1994, s.92; Гейбуллаев: 1986, s.165]. Əslində isə Aral və Ural eyni yox, qohum etnoslar idilər. Aral gölü aralların, Ural dağları Uralların tarixi yurd yerləridir.

D.D.Paqirev yazır ki, Cənubi Qafqazda Ural adlı 12 kənd var [Пагирев: 1913, s.194]. Bir Oral kəndi də Türkiyə ilə Gürcüstan arasında idi. Həmin kənddə Axısqa türkləri yaşayırdılar.

Başqurdların xalq dastanı "Ural Batır" adlanır. Həmin eposda Ural dağlarının yaranması haqqında əfsanə vardır [Башкорт халык эпосу: 1977, s.11, 52]. O əfsanədə xatırlanır ki, başqurdları bəd ruhlardan qorumaq üçün Tanrı Ural dağlarını yaratmışdır.

Aral və Ural Şumerdə olduğu kimi, qədim türk panteonunda iki tanrının adıdır. Ural uran, yəni vuran, Aral qoruyan deməkdir. Ural vurur, yaralayır, Aral yaraları sarıyırdı.

Əslən Çin Türküstanından olan Mamux nəslinin sparapetləri – süvari qoşun başçıları döyüşdə ölən alp igidləri dirildən mələklərə *Aral* deyirdilər. Erməni mətnşünasları Mamuk nəslini *Mamikonyan*, Aral nəslini *Aralez*, *Aralezk* adlandırmaqla uzun müddət tədqiqatçıların diqqətini yayındıra bildilər [Абегян: 1975, s.43, 54, 182; Хоренский: 1893, s.33, 126, 297; Фавстос Бузанд: 1953, s.56, 81, 222].

Buzanlı Favstos yazır ki, Muşeq Mamuk öldürüləndə qohumları onun kəsilmiş başını bədəninə bitişdirib gözlədilər. Gözləyirdilər ki, arallar gəlib onu dirildəcək [Фавстос Бузанд: 1953, s.121, 182]. Həmin məlumat ermənilərin *Yeznik Koxbatsi* adlandırdıqları Kuxlu İznik əsərində də vardır. Kux nəslindən olan salnaməçi yazır ki, Mamuk və Konak nəsilləri aralezləri göylərdən enən itbaşlı adamlar kimi təsəvvür

edirdilər [Фавстос Бузанд: 1953, s.182, izahlar].

Kerop Patkanov Musa Xorenlinin kitabının 1893-cü il nəşrinə izahında yazır ki, *Aral* teonimi *H`Ay* dilindəki *ara,* yəni yara sözündən törəyib. Mamuklar da, h`aylar da türk dillərinin arxaik ləhcələrində danışdıqlarına görə [İlhami Cəfərsoy: 2020, s.54-55] yaraya *ara,* yəni qılıncla aralanmış, kəsilmiş deyirdilər.

E.ö. IX əsrdə yazılan bir Urartu mətnində deyilir ki, Van gölü vadisində *Aral* adlı qala var [Пиотровский: 1944, s.248]. Eyni zamanda İveriyadakı Kaçi çayının qədim adı *Aral* idi. [Шопен: 1852, s.43, 247]. *Kaçi* türk dillərində olduğu kimi, İver dilində də keçi deməkdir. Altay şaman dualarında Kaçi Kam əcdadların ruhlarından biri kimi xatırlanır.

Xüsusilə nəzərə alınmalıdır ki, Urartunun bütün çarları totem adları daşıyırdılar. Ər Gişli, Sarı Tur, Uruz Urartu tayfa ittifaqının ən güclü etnoslarının başçılarıdır. Ermənilər onları oxusalar da, sillabik formantların fonologiyasını bilə-bilə düzgün izah etməyiblər.

Məsələn, mətnlərin birində çarın adı *Dinqir Sarituri* formasında yazıya alınmışdır. Bu, tanrının himayəsi altında olan Sarı Tur etnosunun patriarxı deməkdir. “–i” bəzən mənsubluq, bəzən təsirlik hal şəkilçisidir [Мещанинов: 1935, s.62, 88; Мещанинов: 1978, s.143; Меликишвили: 1960, s.81-82]. Ermənilər uzun çabalardan sonra çarın adının Sardur formasında dərsliklərə daxil edilməsinə nail oldular, Dinqir teonimi isə yalnız ilkin mətnlərdə qaldı.

M.V.Nikolski yazır ki, çarın adı Sardur yox, Tur olmuş, mətndə sari-tur-i işarələri ilə göstərilmişdir [Никольский: 1893, s.II, III, VII]. Maraqlıdır ki, Urartu mətnlərində olduğu kimi, Assur kitabələrində də çarın adı *Sardur* yox, *sari-tur-iş* formasındadır [Масперо: 1911, s.430].

Sarı və Saruk Çin nəsilləri Urartu tayfa ittifaqının yaranışından min il qabaq Misirlə Fələstin arasında yaşayırdılar. Aramey mətnlərində onlar *Sari Tur* və *Saru xen* adlandırılır [Масперо: 1911, s.430, 432; Авдиев: 1948, s.158].

İudalar Fələstini işğal edəndən sonra Sari nəslini şimala köçməyə məcbur etdilər. Onların bol sulu məhsuldar vadisini ***-on*** şəkilçisi artıraraq *Şaron vadisi* adlandırdılar.

V.İ.Avdiyev yazır: - Saru xen ölkəsinin adı Şaron vadisinin adından törəyib [Авдиев: 1948, s.158]. Əksinə, öncə qeyd olunduğu kimi, *Şaron* Sari adının yəhudiləşdirilmiş formasıdır. Müxtəlif mənbələrdə *Sari, Saruk, Sarıçin* adlandırılan nəsillər Fələstində iudalardan qabaq yaşayırdılar və onlar öz patriarxlarını *Sari Tur, Saru xen* adlandırırdılar [Масперо: 1911, s.430; Эрнст Ренан: 2750, s.79; Генрих Грець: 1907, s.166]. V.İ.Avdiyev yazır ki, Saruxen ölkəsi və şəhəri Fələstində firon I Yaxmosun zamanında – e.ö. XVIII əsrdə var idi [Авдиев: 1948, s.158].

Ernst Renan “Xristianlığın ilk əsrlərinin tarixi” kitabında yazır: - Sarıçinlər qədim tarixçilərin əsərlərində bene-Kadem, yəni *Şərq oğulları* adlandırılır. Onlar təkallahlı olub, dindaşlarının Allaha uzanan əllərinə *el* deyirlər [Эрнст Ренан: 2750, s.79]. Sarıçin və ya Saruxenlər şərq oğullarıdırsa və ələ ***el*** deyirlərsə, deməli, Urartu çarı Sarı Turun nəsli indiki ermənilərin yox, bizim əcdadlarımızdır.

***Tur*** Urartu mətnlərində cüyürün, dağ keçisinin erkək balasına deyilir [Мещанинов: 1935, s.73, 75]. Türk dillərində də ***tur*** dağ təkələrinə, erkək cüyürlərə aid sözdür.

İslamiyyətin ilk illərində sarıçinlər müsəlman oldular. Xilafətin vassalı kimi, Şərqi Anadolunun, Cənubi Qafqazın çoxlu xırda xalqları üzərində hökmran oldular. Naxçıvan yaxınlığındakı Dəvəli şəhərini özlərinə sığnaq eləyib Tiflisi tutdular. Bu həmin Dəvəlidir ki, ermənilər indi ona *Dvin* adı veriblər.

Gürcü tarixçiləri sarıçinləri *Sarkinoz* adlandırırlar. A.S.Xaxanov yazır ki, Sarkinoz xalqı elə sarıçinlərdir [Хаханов: 1897, s.34], yəni *Sarıxen, Sarıçin* eyni xalqın adıdır. Bizim üçün maraqlıdır ki, həmin etnosun patriarxları türkcə *Sarı Tur* totem adı daşıyırdılar.

*Ərkeş* – Urartu tayfa ittifaqı başçılarının üçü Ərkeş nəslindən çıxmışdır. Van qaya yazılarında Onların adı *ar-qişti* hecaları ilə yazıya alınmışdır [Никольский: 1893, s.VI, VIII]. Arqişti *Ərkeşli,* yəni Ərkeş nəslindən olan deməkdir.

Ərkeş nəslindən olan bir patriarxın adı e.ö. 551-ci ildə yazılan Əhəməni kitabəsində də vardır. Bağastan kitabəsinin Ancaq dilində olan üçüncü mətnindəki o adı alman alimi Fridrix Vaysbax *Arqişti* kimi oxumuşdur. Akademik Marr belə hesab edir ki, həmin Arqişti Urartu çarlarından biridir [Марр: 1922, s.36].

M.V.Nikolski yazır ki, *Arqişti* adı Van qaya yazılarında *dınqır* işarəsi altında göstərilmişdir [Никольский: 1893, s.VI, VIII]. Bu onu bildirir ki, ***Ərkeş*** teonim mənşəli etnonimdir, yəni *Ərkeş* Urartu etnoslarından birinin tapındığı tanrının, Ərkeşli etnosunun adıdır. Akademik Marra görə, *Arqiş* etnos, *Arqişti* etnosun patriarxının adıdır [Марр: 1922, s.36; Марр: 1914, s.65].

Ərkeşlilər Van gölünün şimalında *Ərgeş* adlı şəhər salmışdılar. Həmin şəhəri IV-VII əsr salnaməçiləri *Arciş* adlandırırlar [Никольский: 1944, s.93; Шопен: 1852, s.62]. Sami dillərində çox zaman türk adlarındakı “k”, “q” səsləri “c”, “ş” səsinə çevrilir. Nəticədə Ərkeş şəhərinin adı *Arceş,* Kemaxeya şəhərinin adı *Şamaxı* olur.

Van gölü yaxınlığındakı Ərkeş şəhəri XIII əsrin əvvəllərinə qədər qalırdı. 1206-ci ildə iudeya mənşəli gürcü baqrationları onu tutub dağıtdılar [Шопен: 1852, s.62]. Bundan sonra şəhərin əhalisi ölümdən qurtulmaq üçün Şərqi Anadolunun və Cənubi Qafqazın dağlıq bölgələrinə köçdü, insanlar gədiklərin arxasına, mağaralara sığındılar.

Musa Kaqankatuklu yazır ki, Diri şəhərinin əhalisi üsyana qalxdı, Ağvan çarına ağ oldular. Bundan istifadə edən ərgeşlər gəlib şəhəri ələ keçirdilər [Albaniya tarixi: 1993, s.25, 210]. Ərgeşlər kilsəyə gəlib keşişi və şagirdini əsir tutmuşdular. Onları öz məbədlərinə aparıb, devlərə baş əyməyə məcbur etmişdilər. Bu məlumat onu göstərir ki, hardasa Qafqaz dağlarının ətəklərində yaşayan ərgeşlər xristian deyilmiş, cahiliyyə dövründən qalma ənənələrlə devlərə sitayiş edirmişlər.

Van gölü vadisində qalan ərgeşlər isə artıq o zaman xristian idilər. Xristian ərgeşlərdən Ərgeşli İlya və Ərgeşli Toma adlı katolikoslar çıxmışdır. Ərgeşli İlya o adamdır ki, Albaniya katolikosu Bakuru ərəblərə satmışdı [Voroşil: 1993, s.33].

Arqişti nəslinin şəhəri Urartu mətnlərində *Argiştixinli* adlanır. Çar Ərkeş Arqiştixinli adlı iki şəhər salmışdı. Şəhərin biri Van vadisində, digəri Urmiya gölü vadisində idi [Никольский: 1893, s.VI, VII; Марр: 1914, s.65; Оганесян: 1961, s.6]. Fikrimizcə, Əhəməni dövrünün Elam mətnindənki Argiştixinli [Марр: 1914, s.65] Urmiya gölü vadisindəki şəhərdir.

Urartu tayfa ittifaqının süqutundan sonra ərgişlərin bir oymağı İrəvan çuxurunda yurd saldı. Onların kəndi 1863-cü ildə tərtib edilən bir xəritədə *Arqez* kimi göstərilmişdir [Географическо-статистический словарь: 1863, s.122]. Həmin kəndi yerli Azərbaycan əhalisi *Ərgəzli* adlandırırdı. Həsən Mirzəyev yazır ki, deportasiyaya qədər orada azərbaycanlılar yaşayırdılar [Həsən Mirzəyev: 2004, s.812].

Ziya Bünyadov yazır ki, ərgeşlərin etnik kimliyini müəyyən etmək çətindir. Necə çətindir ki, onlar deportasiyaya qədər özlərini azərbaycanlı sayır və Azərbaycan dilində danışırdılar?

İbn əl-Əsir yazır: *Ərgiş* adlı bir əmir Ərdəbil şəhərini tutmuşdur. Şəmsəddin Eldəniz ilə Aslan Apa qoşun yeridib, onu Ərdəbildən qovdular. Maraqlıdır ki, bəzi salnaməçilər əmir Ərgişin adını *Ərquş* kimi yazırlar. İstər *ər kiş* olsun, istər *ər quş,* hər ikisi türk sözləridir.

Akademik Marr yazır ki, arxeoloqlar 1914-cü ildə Van gölü vadisindən insan başlı quş bütü tapdılar. O büt yırtıcı bir quşa bənzəyirdi [Марр: 1920, s.20]. *Ərgeş* etnoniminin *Ərquş* variantı doğrudursa, *ər quş,* yəni qartal qədim türk panteonunda göylərdən, tanrıdan alp igidlərə ucalıq gətirir.

Əcdadlarımızın miflik düşüncəsinə görə, alp igidlərin döyüşdə bədənləri ölsə də, ruhları ölmürdü, bir laçının, qartalın bədəninə köçərək yaşayırdı. Urartu mixiyazılı abidələrində Argişti adının dınqır işarəsi altında yazılması onun göydəki tanrı tərəfindən himayə olunduğunu göstərir.

Yox, əgər adın *Ərkiş* forması doğrudursa, *kiş* etnonimi silaha totemik münasibətlə bağlıdır. Türk dillərinin bəzilərində ox qabına *kiş,* bəzilərində *sadax* deyilir.

Urartunun qüdrətli çarlarından ikisi Uruz nəslindən çıxmışdır. Uruz nəslinin adı ilə bir müddət Urartu dövləti *Uruztu* adlanırdı. Ancaq erməni və gürcü mətnşünasları o ölkənin adını bilərəkdən *Uruştu* kimi oxuyurlar. Nəzərə almırlar ki, Urartu qaya yazılarında ***s, ş, z*** səsləri eyni işarə ilə göstərilir.

Assur və Urartu mixiyazılı abidələrində *Uruz* adı ***Rusa, Ursa, Urza***, Etrusk güzgü mətnlərində ***Uruste*** formalarında yazıya alınmışdır [Мещанинов: 1935, s.104; Никольский: 1896, s.1; Никольский: 1893, s.VI, 2; Solmaz Qaşqay: 2006, s.35; Мещанинов 1985, s.16,212]. Əslində isə çarların adı ***Uruz*** olmuşdur. ***Uruz*** və ***Araz*** Ön Asiyanın qədim mənbələrində teonim və etnonimlərdir [İlhami Cəfərsoy: 1995, s.8-16].

Arar Ön Asiyanın qədim prototürk etnoslarından biri, eyni zamanda həmin etnosun tapındığı tanrının adıdır. Bibliyada Arar xalqının yaşayış məskənləri Ararat adlandırılır.

V-VII kilsə salnamə tanrı Ararın adı Aralez formasındadır. Aral türk teonimi, -es yunan şəkilçisidir.

Xristianlıqdan öncəki inanca görə Aralez döyüşdə ölən əsgərlərin yaralarını sarıyıb sağaldırdı.

## ƏDƏBİYYAT


1.Абегян М. Х. История древнеармянской литературы. Ереван, изд-во Академии Наук. 1945.

2.Абдиев В.И. Военная история древного Египта. Москва, "Наука", 1948.

3.Albaniya tarixi. Musa Kaqankatuklu. Bakı, "Elm", 1993.

4.Башкорт хаlык эпосу. Уфа, "Илым", 1977.

5.Роберт Блейхштейнер. Субары древного Востока в свете изучения Яфетидов. Язык и история. т.1, Ленинград, 1936, с. 182-202. 1936.

6.Budaqov B. Ə. Türk uluslarının yer adları. Bakı, "Elm", 1994.

7.Гейбуллаев Г.А. Топонимия Азербайджана. Баку, "Элм", 1986.

8.Генрих Грець. История евреев. Т. 2., Одесса. 1907.

9.Географическо-статический словарь, т. 1, Санкт-Петербург. 1863.

10.İlhami Cəfərsoy. Türklər rusların soy kökündə. Bakı, ADPU nəşriyyatı. 1995.

11.İlhami Cəfərsoy. H`Ayların və Armenlərin mənşəyi. Bakı, "Avropa", 2020.

12.Оганесян К.А. Арин-берд. Архитектура Эребуни. Ереван, изд-во Академия Наук. 1961.

13.Марр Н.Я. Определение языка второй категории. Ахаменидских клинописьменных надписей по данным Яфетического языкознания. Санкт Петербург. 1914

14.Марр Н.Я. Яфетический Кавказ и третий этнический элемент в созидании средиземномарской культуры. Лейпциг.1920.

15.Марр Н.Я. Кавказские племенные названия и местные параллели. Петроград, Типография Академии Наук. 1922.

16.Масперо М. Древняя история народов Востока, Москва. 1911.

17.Меликишвили Г. А. Урартские клинообразные надписи. Москва, изд-во Академии Наук.

18.Мещанинов И.И. Язык Ванских клинописных надписей Ленинград. 1932.

19.Мещанинов И.И. Язык Ванских клинописи. вып. 2, Москва, изд-во Академии Наук. 1935.

20.Мещанинов И.И. Аннотированный словарь Урартского языка. Ленинград, "Наука", 1978.

21.Молчанова О.Г. Топонимический словарь Горного Алтая. Горно-Алтайск. 1979.

22.Никольский М.В. Клинообразные надписи Русы I в Келану (Алучалу) на берегу Гокчи в Эриванской губернии. Москва. 1893.

23.Мещанинов И.И. Древневанские имена богов и царей. Яфетический сборник, вып, X, Ленинград, 1927.

24.Пиотровский Б.Б. История и культура Урарту. Ереван, изд-во Академии Наук. 1994

25.Поэзия и проза древного Востока. Будапешт, Корвина. 1973.

26.Струве В.В. История древного Востока. Москва, Госполитиздат. 1941.

27.Фавстов Бузанд. Истории Армении. Ереван, изд-во Академии Наук.

28.Хаханов А.С. Очерки по истории грузинской словесности. вып. I, Москва. 1895.

29.Хаханов А.С. Очерки по истории грузинской словесности. вып. II, Москва. 1897.

30.Хоренский. История Армении. Москва, типография Гатнук. 1893.

31.Шопен И.И. Исторический памятник состояния Армянской области к эпоху ея соединения к Российской Империи. Санкт-Петербург. 1852.

32.Энеида. Москва-Ленинград, изд-во Академии Наук. 1933.

33.Энеида. Москва, изд-во Академии Наук. 1971.

34.Эрнст Ренан (инв. № 2750). История первых веков христианства. Антихрист. Т. IV. Санкт-Петербург.

**Ilhami JAFARSOY**

**THE MOUNT ARARAT IN THE BIBLE**

**SUMMARY**

The name of the Mount Ararat in the Bible was taken as the object of ethnolinguistic research in this paper. We come to such a conclusion that Ararat is a theonym of oronymic origin.

Arar and Urar are the names of the two deities of Western Asia. Then these theonyms turned into the forms Aral and Ural with the change from r to l.

In the mythical thinking of the ancient Proto-Turkic people, Aral was a good deity, and Ural was an evil one. Ural "urur", i.e. he hits, kills, and Aral bandages the wounds of the brave men who were wounded in the battle.

That is why, they used not to bury the brave men who were killed in the battle. They used to put them in the shrine and wait for 12 days. They believed that Aral would come and revive them.

Faustus from the Buzan dynasty of the Bulgars wrote such a fact about this belief. The Christian chroniclers with Greek education writes the name of the God Aral as Aralez.

Being of the theonymic origin the names of the Ural mountains and the Lake Aral are formed from ethnonyms.

**Keywords:** *Aral, Ural, theonym, good and evil spirits, Sari Tur, Ergish*

**Ильхами ДЖАФАРСОЙ**

## ГОРА АРАРАТ В БИБЛИИ


### РЕЗЮМЕ

В статье название горы Арарат, упомянутой в Библии, становится объектом этнолингвистического исследования. Делается вывод, что Арарат – производный от теонима ороним.

Арар и Урар имена двух божеств древней Передней Азии. Со временем, в результате чередования р-л данные теонимы преобрели формы Арал и Урал.

В мифическом сознании прототюрков Арал был добрым божеством, а Урал – злым. Урал бил, убивал. Арал же перевязывал раны храбрецов, раненых в битвах.

Поэтому погибших воинов первые дни не хоронили, а положив в храм, 12 дней выжидали, веря, что Арал их воскресит.

Историю, связанную с таким верованием описал Фавстос из булгарского рода Бузан. Христианские летописцы с греческим образованием вместо Арал писали Аралез.

Названия Уральских гор и озера Арал исходят из теонимов Урал и Арал.


**Ключевые слова**: *Арал, Урал, теоним, добрые и злые духи, Сары Тур, Аргиш*